# Türkiyə tarixi romanlarından Reha Çamuroğlunun "İsmail" romanında Şah İsmayıl xarakteri

**Yasemin Meydan**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yaseminmeydan@gmail.com

**Annotasiya.** Bu iş giriş, fəsil, nəticə və biblioqrafiyadan ibarətdir. Birinci hissədə tarix elmi ilə roman arasındakı əlaqə, ikinci hissədə, Reha Çamuroğlunun "İsmail" romanında irəli sürdüyü "Şah İsmayıl xarakteri" müzakirə olunur. O, tarixə mürşid-i kamil olaraq düşdü. Hələ də müzakirə edilən bu fərqli və iç-içə təəccüblü xüsusiyyətlərə görə roman, teatr, şeir və simpozium mövzusudur. Tarixi kimliyi və Ələviliklə bağlı geniş araşdırmaları ilə tanınan Reha Çamuroğlu, "İsmail" romanı ilə bizi onbeşinci əsr dünyasına aparır.

**Açar sözlər:** Səfəvilər, Qızılbaşlar, tarixi roman, Şah İsmayıl Xətai

**Məqalə tarixçəsi:** göndərilib – 11.01.2021; qəbul edilib – 19.01.2021

# The image of Shah Ismail in Reha Chamuroglu's novel "Ismail" from Turkish historical novels

**Yasemin Meydan**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: yaseminmeydan@gmail.com

**Abstract.** This work consists of an introduction, chapter, conclusion and bibliography. The first part discusses the relationship between history and the novel, and the second part discusses the "character of Shah Ismail" put forward by Reha Chamuroglu in his novel "Ismail". He is known as murshid-i kamil in history. He is the subject of novels, theater, poetry, and symposia due to these distinctive and intriguing features that are still being discussed. Reha Chamuroglu who is known for his historical identity and extensive research on Alawism, takes us into the world of the fifteenth century with his novel "Ismail".

**Keywords:** The Safavids, Qizilbash, historical novel, Shah Ismayil Khatai

**Article history:** received − 11.01.2021; accepted − 19.01.2021

## Giriş / *Introduction*

Gənc yaşlarında məzhəb postunda oturan İsmayıl, yaxşı təhsili, parlaq zəkası və qeyri-adi istedadı ilə ətrafına kifayət qədər təsir etmək gücündə olmuşdur. Hakimiyyəti simvolik olaraq "On iki imam inancı" ilə üst-üstə düşən İsmayıl onu "Mehdi" olaraq görən, əvvəllər Anadoludan gəlib ətrafında toplanan və Rumlu kimi tanınan heterodoks (Ələvi) Türkmən Qızılbaşlarıyla birlikdə iki illik qısa bir müddətdə düşmənlərini məğlub edərək taxta çıxır və hökmdar olur (1501).

## Əsas hissə / *Main Part*

Şah İsmayıl çoxyönlü xüsusiyyətləri və müstəsna şəxsiyyəti ilə adını tarixə yazdırmağı bacaran nadir insanlardan biridir. Şeyx, şah və şairlik üçlüyü ən aydın şəkildə onda bir bədən halına gəlmişdir. İsmayıl qədim Ərdəbil Təkkəsinin mürşidi-kamili və Hz. Əlinin xilafətinin varisi olduğu kimi, eyni zamanda türk, tacik, kürd, beluç, əfqan, ərəb, gürcü, erməni və s. daxil olmaqla, müxtəlif xalqların yaşadığı 3,5 milyon kvadrat kilometrlik ərazinin hökmdarı idi. Belə ki, "Şah İsmayılın köməyi ilə Transaksoniyada hakimiyyəti ələ keçirən Babur şah, Səfəvi şahının adına xütbə oxutdurmuş və pul kəsdirmişdi" [7, s.1-46].

İsmayıl, eyni zamanda "Xətai" təxəllüsü ilə şeirlər yazan bir "sâhib-i seyf ü kalem", yəni qələm və qılınc sahibidir. Təkcə bu beyt şeirdə onun gücünü göstərmək üçün kifayətdir:

*"Zâhid korıma sen meni peymâneden bugün*
*Rûz-i ezelde yâr ile peymân yeter mana*
*Gerçi* ***Hatâyî*** *gitdi elünden visâl-i dost*
*Her dem hayâli dîdeye mihmân yeter mana"*
[6, s.262-263].

Şah İsmayıl, siyasi kimliyi ilə çevirdiyi təsəvvüf (sufizm) anlayışına uyğun şeirləri ilə yalnız Səfəvilərin təməl elementini təşkil edən Qızılbaş türkmənlərini deyil, həm də Osmanlı coğrafiyasındakı Balkanlara qədər uzanan Ələvi-Bektaşi ənənəsinə dərindən təsir etmişdir.

Reha Çamuroğlu "İsmail" romanında inamla həqiqət arasında ortaya çıxan ziddiyyət və münaqişələri romanın qəhrəmanı "İsmail"in dilindən qələmə alıb. Hər dəfə ən yaxın dostu Nəcm ilə qazandığı qələbələri müzakirə edərkən mahiyyətdən uzaqlaşdığının fərqinə varır. Zaman-zaman şüurunu itirəcək qədər daxili hesablaşmalar ilə mübarizə aparır və bunu Xətai təxəllüsü ilə yazdığı şeirlərində də əks etdirir. Ancaq buna baxmayaraq, bəzən inancını bir kənara buraxıb və iqtidarını gücləndirməkdən də özünü saxlaya bilmir. Zamanla şahlıq məqamı şeyxliyinə hakim olduqda, yaxın çevrəsində olan davamçıları da yerlərini fəth edən ruhlara buraxırlar.

Romanda Şah İsmayılın anadan olmasından ölümünə qədər müddət xronoloji ardıcıllıqla əks olunur və "uşaq İsmayıl" olaraq başlayan həyat mərhələsi, "Şeyx İsmayıl", "Şah İsmayıl" mərhələlərindən sonra "Xətai" olaraq davam edir və Xətai olaraq da bitir.

"Tarix" subyektiv cəhətin üstünlük təşkil etdiyi bir elm sahəsidir. Bu səbəbdən nə qədər insan qəbul etsə də, tarix və ya içindəki hər hansısa bir hadisə qaçılmaz olaraq fərdlərin təxəyyülüdür. Çünki tarixi birbaşa və ya yekdilliklə qəbul edilən dəyərlər və ya qətiyyətlər ilə deyil, başqasının təcrübə və ya biliyinə əsaslanan şəxsi (subyektiv) fikirlərini bizə ötürməsi ilə görürük. Tarixin həqiqətləri bizə heç vaxt "təmiz" və ya "olduğu kimi" çatmaz. Həmişə qeydlər götürənin zehnindən qırılaraq bizə gəlib çatar. Lakin Ziya Gökalpın dediyi kimi, tarix insanlığın ümumi təcrübəsidir.

Ümumiyyətlə, tarix ədəbiyyatın, bundan qaynaqlı olaraq da roman janrının ən vacib mənbələrindən biridir. Quruluşu baxımından tarix nəticə olaraq linqvistik bir mətndir. Buna görə üslub baxımından ədəbiyyatla qarşılıqlı əlaqədədir. Digər tərəfdən, fərqli tarixi yanaşmalarda tarixi sənədlərin itkin düşdüyü zaman xatirə, gündəlik və məktub kimi müxtəlif ədəbi mənbələrdən istifadə olunduğu da məlumdur. Ədəbiyyat və roman nöqteyi-nəzərdən isə tarix tükənməz bir qaynaqdır. Ədəbi mətn, xüsusilə də roman həm tarixi bir dövrdə formalaşa bilər, həm də tarixi bir hadisə (vəziyyət), şəxs və s.-i mövzu olaraq işləyə bilər [3, s.11].

Şaban Sağlıkın aşağıdakı fikirləri vacibdir:

"Tarix keçmişdəki hadisələrin hər birinin deyil, yalnız təsirləri uzunömürlü və diqqətəlayiq olanların seçilərək araşdırılması baxımından bir romana bənzəyir. Çünki roman da tarix kimi, insanın bütün həyatını özündə əks etdirmir. O da bir seçim edir və insan həyatındakı əhəmiyyətli məqamları özündə birləşdirir. Ancaq tarix və roman materiallarına görə bir-birindən fərqlənir. Tarix gerçəklərlə məhdudlaşdığından və gerçəyi sənədləşdirməli olduğundan tarixçini buna məcbur edən qaydalar olduqca çoxdur. Lakin roman yazan biri gerçəkləri yazmaqla məhdudlaşmaqdan narahat deyil. Çünki o, həqi-

qi olanları da, olmayanları da romanında göstərə bilər. Roman yazarının nəzərində hadisələr – istər real olsun, istərsə də uydurma – sadəcə roman materiallarıdır. Onun üçün əsas şey romandır, material ikinci dərəcəli olaraq qalır. Yazıçı materialların limitsiz olması və bunları istədiyi kimi istifadə etməsi baxımından tarixçidən daha azaddır" [9, s.36-37].

Əslində, həm tarixçi, həm də romançı tarixi yenidən quran insanlardır. Hər ikisi də tarixin mətnlər üzərindən ifadə edilməsini ön plana çıxaran bu insanlardan romançı söylənilən, bilinən tarixi yenidən (estetik zövqü və maraqları nəzərə alaraq, hətta lazım gəlsə, tarixi gerçəkliklərdə dəyişikliklər edərək) redaktə edərək bir məhsulu ortaya çıxaran insandır.

"Tarixi romanlarda yazarlar insanlar üçün önəmli olan və yaşanmış keçmişi canlandırdığı zaman tarixi məlumatlarda və sənədlərdə rast gəlinməyən, lakin olma ehtimalı mümkün hadisələri öz xəyal gücüylə gerçəkləşdirir. Beləliklə, tarixi roman tarixin önünə keçir və hadisələri tarixi olmaqdan qurtarır" [2, s.14].

Mehmet Kaplanın fikrincə, tarix romançıya görə, redaktə edəcəyi xəyali dünyası üçün sadəcə bir material rolunu oynayır. Buna görə də mövzusunu tarixdən alan romanlarda əsl həqiqət romana aid olan həqiqətlərdir: "Tarixi romanı sənət əsəri kimi dəyərli edən şey, tarixi mənbələrə və həqiqətlərə uyğun olmaqdansa, özlüyündə bir dünya təşkil etməsidir. Romançı sözləri ilə dünya xəyalı yaradan insandır" [5, s.7-8]. Kaplanın bu fikirlərindən aşağıdakı nəticəyə gəlmək mümkündür: roman sənətinin təbiətinə görə, tarixi romançılar tarixi reallığa daxil olmayan qəhrəmanları da canlandırmaq haqqına malikdirlər.

"Reha Çamuroğlu tarixçi olmağın da üstünlüyündən istifadə edərək tarixin bəzi dövrlərinə xəyal gücünün verdiyi imkanlarla daha yaxından baxmağı mümkün edən müəlliflərdən biridir. Çamuroğlunun romanları bir çox tarixi roman müəllifinin yazmaqda israr etdiyi kimi tezislə deyil. Tarixi şəxsiyyətləri yenidən redaktə edərkən onları ideallaşdırmaq kimi bir cəhd etmədiyi üçün yazıçının romanları inandırıcılığını və tarixə işıq tutmaq əlamətini mühafizə etmişdir" [1, s.847-860].

Tarixi bir roman olan "İsmail" Səfəvi dərviş lojasının milliləşdirmə prosesini ələ alır. Tarixi mənbələrə sadiq qalmağa çalışan yazıçı romanda 1400-cü illərin sonu və 1500-cü illərin əvvəlini göstərmək üçün həmin dövrün sosial, mədəni, bədii, dini və siyasi həyatını bir çox insan və məkan adlarına yer verməklə çox parlaq bir şəkildə əks etdirmişdir. Bu isə əsərin dəqiq bir araşdırma və dərin bir mədəni akkumulyasiya məhsulu olduğunu bizə sübut edir. Yazarın "İsmail"də xarakterlərin analizini mükəmməl bir şəkildə edərək tarixdə var olmuş bu şəxslərin daxili dünyasını və psixologiyasını oxucuya bütün çılpaqlığı ilə çatdırmağı bacardığını deyə bilərik.

Türkiyədə Şah İsmayılın həyatı Reha Çamuroğlunun romanı ilə yanaşı, Tufan Gündüzün "Son Kızılbaş Şah İsmail", Feridun Fazıl Tülbentçinin "Şah İsmail", Mustafa Yukanın "Şah İsmail", Kazım Tekinerin "Şah İsmail" ve İskender Pala'nın "Şah ve Sultan"(ilk buraxılış tarixi 2010) adlı romanlarında da öz əksini tapmışdır.

Azərbaycan oxucuları da Əzizə Cəfərzadənin "Bakı-1501", Əlisa Nicatın "Qızılbaşlar", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanları hesabına Şah İsmayıl haqqında məlumat ala bilirlər.

Azərbaycan və Türkiyədə sadəcə roman janrında yazılmış olan əsər sayı Şah İsmayılın düşüncə, ruh, mədəniyyət və inanc dünyamızdakı yerini göstərmək baxımından vacibdir.

"İsmail" romanında əsasən Türkmən Ələvilərinin Səfəvi dövlətini qurması prosesi təsvir edilmişdir. Dövlətin adı İsmayılın altıncı nəsil babası olan Ərdəbil dərviş lojasının və Səfəvi təriqətinin sünni şeyxi Şeyx Səfiəddin əl-İshaq əl-Musəvi əl-Ərdəbilinin adı ilə bağlıdır. Bir zamanlar Osmanlı rəhbərliyinin "Çerağ akçası" deyə bilinən maddi dəstək ilə nəzarət altında saxladığı dərviş lojası İsmayılın babası şeyx Cüneydin zamanında sünni məzhəbindən və Osmanlı təsirindən uzaqlaşmağa başlayır. Xüsusilə İsmayılın dövründə bir dövlət qurmaq və şərq coğrafiyasında söz sahibi olma prosesi, Osmanlı İmperatorluğunun zülmkar nəzarəti altında qalan, "Rumlu" adlandırılan Anadolu Türkmenlərinin axını ilə daha da sürətləndi. Romandakı hadisələr bu gün İranın sərhədləri

daxilində yer alan Ərdəbil şəhərində başlayır və Təbrizdə sona çatır. Hadisələrin mərkəzində "şəxs" olaraq ən heyranedici şəkildə şeyxi, şahı və şeiri özündə birləşdirən Şah İsmayıl durur.

Romanda İsmayıl obrazı ümumiyyətlə, "heyranedici atmosferə sahib bir insan"dır. Bu heyranlığın səbəbi, əslində, bir ruhaninin mənəvi keyfiyyətlərinin nəticəsindən daha çox, onun sürətli zəkası, hiyləgərliyi, dəhşətli ehtirası, hakim xarakteri və əsrarəngiz siyasətinin nəticəsidir. Onun bu xüsusiyyətlərindən xəbərdar olan ətrafındakılar bu fərqlilikləri heç vaxt onda insan xüsusiyyətləri kimi görmək istəmirlər; İsmayılın hikmət axtarmadığı mənfi və müsbət bir xüsusiyyəti yoxdur; bu, heç bir ruhani liderin sahib olmadığı bir keyfiyyətdir. Əslində, romandakı "İsmail" obrazının mistik mənada mənəvi səviyyələrdə irəliləməsi və ya seyr-ü sulukunu tamamlaması ilə bağlı heç bir narahatlığı yoxdur. İnsanlar ona hər halda bir Mehdi kimi baxırlar. O, İmam Əlinin yer üzündə canlandırmasıdır. Bütün bilinən, bilinməyən, fərq edilən və fərq edilməyən üstün keyfiyyətlər onda cəmlənmişdir. Mehdi olub-olmaması hətta müzakirə olunmur. Kim bunu müzakirə üçün açarsa, bu, yalnız o insanın kamil olmadığını göstərir. İsmayıl ətrafdakılara xalqın onunla bağlı olan bu inanclarıyla razılaşmaq istəmədiyini söyləsə də, onların dualarının "Bismillah" əvəzinə, "BismiŞah" kimi başlamasına da qarşı çıxmır. Bu və buna bənzər təriflər insanın ruhuna xoş gəlsə də, dini inanca uyğun gəlməyən hərəkətlərdir. İsmayıl onun haqqındakı hər tərifi bəyənir; İsmayıla bir şeir oxumaq belə oxuyanın onu zənginləşdirə biləcək hədiyyələr almasına səbəb olur.

"Ümumiyyətlə, romanlarda iki növ ruhaniyə rast gəlinir. Müəllif (Reha Çamuroğlu) din adamlarını əsas məqsədi din olan və din olmayan deyə ikiyə ayırır. Müəllifin "Son Yeniçəri" romanında sözükeçən Bektaşi kişiləri ətraflarındakı insanlara Bektaşilik haqqında məlumat vermək və onlara mənəvi rəhbərlik etməyi hədəfləyən insanlardır. Bu çərçivədə yazıda bu insanlar üçün mənfi bir açıqlama yoxdur, hətta tərifə belə yer verilir. Lakin "İsmail"də müzakirə mövzusu olan ruhanilər üçün eyni ifadəni istifadə mümkün deyil. Çünki bu insanlar təkcə din xadimləri deyil, həm də siyasətçilərdir" [1, s.847-860].

Müəllif İsmayılın babası Şeyx Cüneyd, atası Şeyx Heydər və ya İsmayıl üçün ruhani olaraq müsbət ifadələr istifadə etmir. Cüneyd ətrafındakı Qızılbaş türkmənlərinə mənəvi olaraq rəhbərlik etməklə kifayətlənmir, həm də gizli gündəmində olanları həyata keçirmək üçün onları siyasi baxımdan yönləndirmək səyindədir. Oğlu Şeyx Heydər və nəvəsi Sultan Əli Cüneyd qədər iddialı olmasalar da, bu ənənəni ondan aldıqları siyasi mirası qoruyaraq davam etdirirlər. Şeyx Heydərin kiçik oğlu Şah İsmayıl isə təriqətin bir dövlətə çevrilməsi prosesində ən vacib addımları atır və bu məqsədlə hər hansı bir vasitəyə müraciət etməkdən də çəkinmir. Buna baxmayaraq, romandakı xəlifələr və ardıcıllar ümumilikdə müsbət obrazlardır. Onların ibadət etdiklərini və ya düşündüklərini görürük. Xalqa rəhbərlik etmək və yaxşılığı yaymaq da onların borcudur.

İsmayılın şeyxlikdən şahlığa keçməsi və qazanmaq həvəsinin onu uçuruma götürməsi romanın vermək istədiyi əsas tezislərdən biridir. Onda olan qazanmaq üçün bu dəhşətli ehtiras, genişlənən Səfəvi ölkəsində din tərəfindən heç vaxt təsdiqlənməyəcək bəzi tətbiqlərə və vəhşiliklərə səbəb olacaqdır. Belə ki, İsmayılın böyük əmisi Cəfərin ən yaxın dostu olan və hakimiyyəti dövründə İsmayılın yanında olan, hərbi və siyasi mövzularda düşüncələrini paylaşan Təkəli Heydər, edilən təqiblərdən narahat olduğu və bunlara daha çox şahid olmamaq üçün İsmayıldan icazə istəyir. Zülm çıxaran hər bir siyasi gücdən bəri qəlblərdə bir taxt qurmağı seçən heterodoksal İslamın təmsilçisi olan Səfəvi dərviş lojası, dövlət olduqdan sonra mahiyyətindən uzaqlaşmışdır.

Aşağıdakı səhnə İsmayılın həm də onu "Şah İsmayıl" edən türkmənlərə qarşı güc sərxoşluğunun təbii nəticəsi olaraq zamanla dəyişən perspektivinin təsviri ilə diqqəti çəkir: "İsmayıl Şahqulu üsyanını və üsyanda Osmanlı vəziri Hadım Əli Paşanın öldürülməsini öyrəndikdə çox qəzəblənir. O, heyəti toplayıb: "Bu türkmənlərlə nə edəcəyəm?" deyə başladığı çıxışına belə davam edir: "Müharibədə bunlardan yoxdur, sədaqət və inamlarına görə bunlardan yaxşı heç kim yoxdur. Ancaq ağıllarını Allaha verib,

əvəzinə sevgi götürüblər. Düşünmək və davranmaqdan danışsanız, onların cilovunu möhkəm tutacaqsınız. Baxın bu Şahqulu deyilən şərəfsizin elədiklərinə. Bir hərəkətdə bütün planlarımızı necə alt-üst etdi, bir vuruşda bizi Osmanlı İmperiyasının düşmənçiliyi ilə necə üz-üzə qoydu. Fəlakət törətdi, düşmənlərimizə xidmət etdi və indi də: "gəlin Şahın yanına" – deyə bizə gəlir."

Bu səhnədə Şah İsmayılın nitqində əks olunan ehtirası, hədəflərinə gedərkən ardıcıllarının səhvlərinə həddindən artıq reaksiya göstərməsi, onları təhqir etməsi və asanlıqla sönməyən hirsi ortaya qoyulmuşdur. Qurduğu dövləti şiə şəriət prinsiplərinə uyğun olaraq idarə etməyə qərar verən Şah İsmayıl, daha əvvəl heç üzlərinə baxmadığı şiə din alimlərini vəzifəyə çağırır. Osmanlı mühasirəsini yarıb onunla qovuşan Şahqulunu öldürtdürür və on beş min əsgəri müxtəlif yollarla təmizlədir. Müəllifə görə, Şah İsmayılın Şahqulu üsyanına münasibəti həm də heterodoks (Ələvi) türkmənləri ilə Səfəvilik arasında çəkdiyi qalın xəttin ən vacib göstəricisidir. İsmayılın ehtirası və təsviri bütün bu inkişaflar heterodoks Anadolu İslamı olan Ələviliklə Şiəliyin bir daha görüşməyəcək şəkildə ayrılmasına gətirib çıxarır. Hadisəyə hökmdar Şah İsmayılın baxışından yanaşsaq, bu yol ayrılmasının əsas səbəblərindən biri təhsilsiz və kasıb türkmənlərin həvəsli ruhlarının və həddindən artıq enerjilərinin qələbələr üçün yetərli olmaması və hökmdarın dövlət bürokratiyasında farslara və ərəblərə üstünlük verən bir siyasət qurmasıdır. Hətta İsmayıl Çaldıran məğlubiyyətinə Rumlu deyə adlanan türkmənlərin səbəb olduğuna inanır və onlarla pis davranmağa başlayır.

Şöhrətpərəstlik, sonsuz ehtiraslar mənəvi liderdə əsla tapılmayacaq sifətlər və dünyəvi hökmdarlarda isə qəbul edilməyən duyğulardır. Şöhrətpərəstlik və sonsuz ambisiyalar gözləri qaraltmaqla qalmaz, eyni zamanda qəlbi bütün müsbət dəyərlərə bağlayaraq, buna əsir düşən insanı düzəlməz səhvlərə qədər aparar. Romanda da İsmayılın şeyxlikdən şahlığa keçməsi və qazanmaq həvəsinin onun sonunu gətirməsi təsvir edilmişdir.

Müəllifin "İsmail" romanında İsmayıla aid etdiyi bu mənfi xarakter sadəcə ona xas deyil. Müəllifin "Sultan Səlahəddin Əl-Kürdi" adlı romanında Səlahəddin Əyyubiyə yanaşması da eynidir; qalib gəlmək ehtirası, Şərqin fatehi olmaq istəyi Səlahəddinin də sonunu gətirmişdir.

Müəllif müxtəlif coğrafiyalardakı müsəlman və türk topluluqlarına hakim olan sultanların (ümumi tarixi xüsusiyyətlərimizə görə qardaşlıq və həmrəylik duyğuları ilə yaşaya və mübadilə edə bilsək də) yalnız ambisiyaları, eqoları və ən böyük olmaq arzusu ilə öz hegemoniyası altında olan, tabe olanları (əsasən müsəlman və türk) bir-birinə qırdırmağa qarşıdır. Bu nöqtədəki hökmdarlar xalqlarının rifahını təmin etmək haqqında düşünmürdülər, əksinə onların özəyindəki işğalçı hissləri düşünürdülər. Buna görə də yazarın romandakı İsmayılın tənqidi əslində onun şəxsindən daha çox, "səhv edə bilən" tərifinə uyğun gələn şəxsdir.

Əslində, romanda Osmanlı sultanı Səlimə gətirilən tənqidlər (müəyyən mənada haqlı olaraq) daha sərt və amansızdır. Müəllifin düşüncələrinə görə, Səlim heç də sünnilərin inandığı kimi bir fateh deyildir. Yazıçıya görə (haqlı olaraq), fəthlər müsəlmanların coğrafiyasına edilməz; bunu edənə də fateh deyilməz. Bununla əlaqədar olaraq yazıçının ifadə etdiyi bu fikirlər diqqətçəkicidir: "Yavuz Şərqin fatehidir demək doğru deyildir. Çünki müsəlman müsəlmanın torpağını fəth etməz. Buna görə də Yavuz fateh deyildir..."

Romanda kinli bir xarakter də İsmailə aid edilir. Şərurda Ağqoyunluları məğlub edən İsmayılın düşmənlərinin daha öncə atasına elədiklərini göz önünə gətirərək, "Dedebey"in əsirlərə nə edilməsi ilə bağlı ünvanladığı suala verdiyi cavab onun bu keyfiyyətini ortaya qoymuşdur: "Əvvəlcə atam Heydərlə döyüşənləri tapın. Öldürün. Amma ölümləri rahat olmasın. Hər birinin ölümü ibrət olsun. Elə olsun ki, sizin belə yazığınız gəlsin, amma öldürməyə davam edin..." [4 (2014a: 191)].

Romanda İsmayılın anası Aləmşah Begüm ilə münasibətləri də problemlidir. Romanın altıncı fəslinin ikinci hissəsində İsmayılın anası haqqında düşüncələri oxucunun diqqətinə çatdırılır; İsmayılın gözündə anası Səfəvidən çox, Ağqoyunludur. Hətta Ərzincana getməzdən əvvəl Ərdəbili ziyarət etməyi məqsədəuyğun hesab edir, ancaq anası Aləmşah Begüm ilə orada görüşəcəyindən narahatdır.

Yenə də Səfəvi ordusu Şərurdan Təbrizə yola düşəndə Təbrizin sünni camaatı narahat idi, ancaq İsmayılın ana tərəfinin Ağqoyunlu olduğunu xatırlayaraq rahatlanmağa çalışırlar və Aləmşah Begümün şəhərə gəlməsini xahiş edirlər.

İsmayıl səhərin ilk işığında taxta çıxanda anası üçün taxtın yanına qoyulan kreslo onu qəzəbləndirir. Anasına təəccüb və qəzəblə baxdıqdan sonra bir çox başı gövdəsindən ayırmaq üçün əmrlərini xalqa çatdırır. Dəhşətli əzablar elandan bir neçə gün sonra baş verir. Bir müddət sonra Şah İsmayılın qapısı bağışlanmaq istəyənlərlə, əfv diləyənlərlə dolub-daşır. Bütün bu hadisələrin şahidi olan Aləmşah Begüm, oğlunun bu əməllərinin qarşısını ala bilməyəcəyini anladıqda ona sərt sözlər söyləyir və ana südünü ona halal etməz. Bu reaksiya İsmayılın anasını edam etdirmə qərarı almasına səbəb olur. Heç bir Səfəvi şəhid şeyxin arvadını və şah anasını edam etmək istəmədiyi üçün, edam heç bir şəkildə gerçəkləşə bilmir. Nəhayət, tapılan üç cəllad bu edam əmrini icra edir. İsmayıl əti qanayana və hıçqırıq tutana qədər bağırır.

Romanda şəhərin günahsız insanlarına edilən heç bir ağlabatan, dini və ya insani əsaslandırma olmayan zülm İsmayılın anasını da öldürə bilməsini özü ilə bərabər gətirir. Romandakı İsmayıl obrazının, bəlkə də, ən dəhşətli tərəfi, İsmayılın anasının Ağqoyunlu olmasından çox, zülmə etirazına, tamamilə insan hissləri ilə zülmə qarşı çıxmasına verdiyi cavabdır. İsmayılın hirsi və ehtirası bir daha dəhşətli şəkildə ortaya çıxmışdır. Lakin İsmayıl cəmi beş yaşında olarkən İstarıdakı qala ətrafında şəhəri yoxlayarmış kimi gəzər və heç kimə zərər verməzdi: "İsmayıl heç kimə zərər verməmişdi, ucadan danışan bir oğlan deyildi. Əksinə, çox səssiz, çox az danışan, danışdığı zaman da səsi eşidilməyəcək qədər zəif çıxan bir uşaq idi. Ancaq bu uşaq hər kəsə nə qədər kiçik olduqlarını hiss etdirirdi" [4 (2014a: 75-76)].

Budur, çox səssiz, çox az danışan, danışdığı zaman da səsi eşidilməyəcək qədər zəif çıxan bu uşaq dünyaya gücünü göstərmək və ambisiyaları naminə çox deyil, 9 il sonra anası Aləmşah Begümün 17 Sentyabr 1501-ci ildə Təbrizdə iplə boğularaq öldürülməsinə qərar verəcək bir xarakterə çevriləcək.

İsmayılın qəribə həyatında anasından başqa, daha iki qadın var. Bunlardan birincisi, İsmayılın əmisi, Ağqoyunlunun sultanı Yaqubun qızı Taclı Begim, digəri isə Bağdad valisi Talış Hadım bəyin qızı Taclı Xanımdır. İlk Taclı Begim ilə ailə quran İsmayıl bir aydan az müddət sonra Taclı Xanımla evlənir. Evlilikləri ona xoşbəxtlik gətirən İsmayıl, Nəcmə bu günə qədər xoşbəxt olmadığını və tapdığı xoşbəxtliyi itirməkdən qorxduğunu söyləyir.

Ancaq İsmayıl məcazi sevgi ilə həqiqi sevgi arasında qalıb, məcazi sevgiyə qapılmaqdan narahatdır və bu barədə düşünür: "(...) İki sevgini birlikdə edə bilməməyimdən qorxuram. Qadınlara baxıram, bəzən gözlərim qamaşır. Görəsən, bu sevgi mənim əsl sevgimə kömək edəcəkmi? Həqiqi sevgiyə müvəqqəti sevginin körpüsündən daha rahat çatıram? Sonra o qumlu mollaların dediklərini düşünürəm, görəsən, gözlərimi qamaşdıran şeytan budurmu?" [4 (2014a: 252)].

Səfəvi ordusunun məğlubiyyəti və Taclı Xanımın Osmanlı İmperiyasının əlinə keçməsi Şah İsmayılı dərindən sarsıtdı. Hadisəni Taclı Begimdən öyrənən İsmail, utandığından Taclı Begimin gözlərinə baxa bilmir. Bu olanlar iyirmi yeddi yaşlı İsmayılı ağılsız, titrək bir qoca halına gətirir. Ətrafındakıların danışdıqlarına nə bir şey söyləyir, nə də müdaxilə edir. Bir vaxtlar İsmayılın: "O, insanı bir ox atımı məsafədən hissləndirir, istəsə, ağladır" – [4 (2014a: 316)] dediyi qadın uzaqlarda, yad ellərdə əsirdir.

İsmayıl Taclı Xanıma yas tutmadan dayanmaz . Ağlaya-ağlaya şeirlər oxuyar:

*"Sen gidenden berlü anca zar ü efgan etmişem*
*Yer ü gök ins ü melek cümle baha kaldı mene*
*Dilberim gitdi Hatayî sen n'idersin dünyayı*
*Çünki can gitdi bu ten yareb niya kaldi mene…"*

İsmayıl Taclı Xanım həsrətinə dözə bilmir və Sultan Səlimə bir məktub yazmağa qərar verir. Bu mənzərə əsərdə belədir:

"Nəcm", – dedi. – "Abdülvahaba elə bir səfir heyəti alacağam ki, Səlim, həqiqətən, barış istədiyimizi başa düşsün. Hədiyyələr bizə yaraşsın. Cəvahiratları bir-bir özün seçərsən, qüsursuz olsun. Bir də məktub yazaq". "Nə yazaq?" – deyə soruşdu Nəcm. "Gəlin, nə baş verdiyini, bir çox günahsız insanın cahilin təxribatı-

na aldandığını yazaq, amma indi bu işi davam etdirmək çox mənasızdır, dinimizin dindarlar arasında döyüşü xoş qarşılamadığını, Səlim kimi bir cahangirə şahın arvadını əsir saxlamasının uyğun olmadığını, onu sərbəst buraxmasının onun məqamını yüksəldəcəyini yazaq", – İsmayıl dedi [4 (2014a: 348-349)].

Ancaq bütün səyləri boşa çıxır. Hər şey İsmayılın gözündə mənasını itirir. Köhnə quru dünya döyüşlərinin də mənası yoxdur. Xəyal qırıqlığı, həsrət və məyusluq onu daha çox həyatdan küsdürür. Taclı Xanımın həsrəti onun yaralı və kədərli ürəyini gündən-günə tükəndirir. Tapdığı təsəllilər isə yalnız susuz bir şəxsin dəniz suyu içməsinə bənzəyir.

Ovdan qayıtdıqdan sonra xəstələnən İsmayıl, ölümlü dünyanın sirrini dərk edərək Nəcmə son şeirini səsləndirir:

*"Cihane ışk ile üryan gelenler*
*Gidende hem yine üryan değil mi?"*
[4 (2014a: 358)].

Aşağıdakı məsələdən bəhs etmədən keçilməməlidir: Türk dünyasında həqiqətən, əhəmiyyətli olmayan məzhəb fərqliliyinə görə, İsmayıl – Səlim mübarizəsində sünni qrup Səlimə üstünlük verdiyi zaman Ələvi/ Şiə isə İsmayılın yanında yer alır. Ortaq zəngin tariximizi, dilimizi, adətlərimizi, sənətimizi, inancımızı və soylarımızı nəzərə alaraq deyə bilərik ki, İsmayıl-Səlim mübarizəsi günümüzə "problem" olaraq gətirilməməlidir.

İlber Ortaylının da Cənubi Azərbaycana etdiyi səfər sonrasında bildirdiyi kimi, bu gün Ərdəbil və Təbrizdəki (demək olar ki, bütün Azərbaycan coğrafiyasında), demək olar ki, bütün ziyalılar Yavuz Səlim və Şah İsmayılın mübarizəsinin nə qədər lazımsız və dağıdıcı olduğunu təkrarlayırlar. Əslində tarixin qaydaları var: Türk şeirinin ən saf dilinə sahib şairlərdən biri olan Şah İsmayılın (Xətai) və fars şeirinin ustası kimi bir dildə danışan Yavuz Səlimin müharibəsi bir sivilizasiya mübarizəsi deyil. Bu, güc və iqtisadi problemdir. Şah İsmayıl üçün məsələ bu idi: "İpək Yollarını kim idarə edəcək, biz Aralıq dənizi dünyasına necə gedəcəyik?" Yavuz Səlim üçün isə Suriya-Fələstin qədər əhəmiyyətli bölgə olan Misirə hakim olması idi [8].

"Yeddi dərviş bir postda oturur, iki hökmdar bir dünyaya sığmazmış". Sonda isə, Şah İsmayılın öz dövrünün ən vacib siyasətçisi, döyüşçüsü, dini lideri, yazıçısı və sənətkarı olduğunu deyə bilərik. 500 il keçməsinə baxmayaraq, Şah İsmayılın sözləri daha da gözəlləşir və insanların beynində və qəlbində yerini qoruyur. 37 illik həyatı boyunca İsmayıl saysız-hesabsız müharibələr qazandı, ölkələri fəth etdi, mədəniyyətlər qurdu, insan cəmiyyətləri təşkil etdi və saysız-hesabsız sənət əsərləri ortaya qoydu.

Yalnız bu sətirlər belə Şah İsmayıl Xətainin qəlb dünyasının zənginliyi və dərinliyi barədə ipucları vermək üçün kifayətdir:

*"Men Hüseynî mezhebem şâhun kulı*
*Ya'ni kim ma'nîde Allah'un kulı*
*Ey* ***Hatâyî*** *pâdişâh olmaz kişi*
*Olmayınca uşbu dergâhun kulı"* [6, s.584].

## Nəticə / *Conclusion*

"İsmail" romanında baş qəhrəman Şah İsmayıl dörd qatlı bir quruluşa sahibdir. Yaşına və məkanına görə qoyulmayan bu fərq Səfəvi dövlətinin qurucusunun həyatında yaşadıqlarına əsasən mərhələləndirilmişdir. Hər mərhələdə İsmayıl həmin mərhələdə tutduğu adı ilə xatırlanır. Ərdəbildən sürgün edildiyi zaman uşaq olan İsmayıl bir şahzadədir. İsmayıl Ərdəbildə şeyx, Təbrizdə şah və Çaldıran məğlubiyyətinin ardından Xətai olur. İsmayıl obrazı həm izah metodundan, həm də dramatik metoddan istifadə edilərək yaradılmış bir obrazdır. Bəzən bu personaj başqa bir müşahidəçinin verdiyi məlumatlarla əsərdə özünə yer tapır. Bu müşahidəçi əsasən Nəcmdir. Yazıçı tərəfindən də bildirildiyi kimi, gözlənilməz davranışlara sahib olan İsmayıl da bu mənada çox ölçülü bir xarakter daşıyır" [10].

**Ədəbiyyat / *References***

1. Akdeniz Uyar, Yasemin, Reha Çamuroğlu'nun İsmail Ve Son Yeniçeri Adlı Romanlarında Alevilik Ve Bektaşilik, SOBİDER-Sosyal Bilimler Dergisi / The Journal of Social Science / Yıl: 4, Sayı: 11, Haziran 2017.
2. Argunşah, Hülya, Tarih ve Roman. İstanbul: Kesit Yayınları.2016.
3. Bozkurt, Oğuzhan, Yüksek Lisans Tezi, Reha Çamuroğlu'nun Tarihî Romanları Üzerine Bir İnceleme, Sosyal Bilimler Enstitüsü, Bartın Üniversitesi, Bartın 2018.
4. Çamuroğlu, Reha, (2014a), İsmail. İstanbul: Everest Yayınları.
5. Kaplan, Mehmet, "Tarihi Romanlarda Şahıslar Nasıl Konuşturulmalı", Türk Edebiyatı, Temmuz 1997.
6. Macit, Muhsin, *Hatâyî Dîvânı*. İstanbul: Yazma Eserler Kurumu Yay. 2017.
7. Musalı, Namık, Akademik Tarih ve Düşünce Dergisi İlkbahar 2018, 5(14).
8. Ortaylı, İlber, Şah İsmail'in topraklarında , Hürriyet.com.tr, 29 Ekim 2016.
9. Sağlık Şaban, Popüler Roman-Estetik Roman. (1. Baskı). Akçağ Yayınları. Ankara, 2010.
10. Sönmez, Egemen Ozan, Yüksek Lisans Tezi, Reha Çamuroğlu'nun İsmail, Son Yeniçeri Ve Bir Anlık Gecikme İsimli Romanlarının Tahlili, I. c. Sosyal Bilimler Enstitüsü, Süleyman Demirel Üniversitesi, Isparta, 2018.

## Характер Шаха Исмаила в турецком историческом романе Реха Чамуроглу «Исмаил»

**Ясемин Мейдан**
Институт литерауры имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: yaseminmeydan@gmail.com

**Резюме.** В статье на основе романа Реха Чамуроглу «Исмаил» установлена связь исторической науки с художественным романом, обрисован характер Шаха Исмаила, который известен в истории как мюршиди-камил («мудрый учитель»). Темы романа и сегодня широко обсуждаемы по схожим и разнящимся своеобразным характеристикам в театральных, писательских кругах и на симпозиумах. Широко известный своими исследованиями по исторической идентификации и движению алевитов Реха Чамуроглу своим романом «Исмаил» уводит нас в мир XVII столетия.
**Ключевые слова:** Сефевиды, Гызылбаши, исторический роман, Шах Исмаил Хатаи